**AZƏRBAYCAN RESPUBLİKASI**

**ƏMƏK VƏ ƏHALİNİN SOSİAL MÜDAFİƏSİ NAZİRLİYİNİN KOLLEGİYASI**

**QƏRAR**

№ 5

**Bakı şəhəri** "06" mart 2017-ci il

**"Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları" və "Məcburi dövlət sosial sığortası üzrə sığorta iştirakçılarının uçotu Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondunun Kollegiyasının 2014-cü il 18 noyabr tarixli 04 nömrəli qərarında dəyişikliklər edilməsi barədə**

"Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin və Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 14 dekabr tarixli 706 nömrəli Fərmanının 3.5-ci bəndinin və "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 24 noyabr tarixli 1125 nömrəli Fərmanının 12.5-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"nin 5.10-cu bəndini rəhbər tutaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Sosial Müdafiəsi Fondunun Kollegiyasının 2014-cü il 18 noyabr tarixli 04 nömrəli qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları"nda və "Məcburi dövlət sosial sığortası üzrə sığorta iştirakçılarının uçotu Qaydaları"nda dəyişikliklər təsdiq edilsin (əlavə olunur).
2. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Hüquq şöbəsinə (G.İsgəndərova) tapşırılsın ki, bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.
3. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Aparatının Ümumi şöbəsinə (L.Abdullayeva) tapşırılsın ki, bu Qərarın surətinin çoxaldılaraq Nazirliyin aidiyyəti struktur bölmələrinə çatdırılmasını təmin etsin.
4. Qərarın icrasına nəzarəti İ.İsayevə həvalə edilsin.

**Kollegiyanın sədri** **Səlim Müslümov**

Ümumi şöbə

ƏSLİ İLƏ DÜZDÜR

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Kollegiyasının "06" mart 2017-ci il tarixli 5 nömrəli qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun Kollegiyasının 2014-cü il 18 noyabr tarixli 04 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları"nda və "Məcburi dövlət sosial sığorta üzrə sığorta iştirakçılarının uçotu Qaydaları"nda edilmiş dəyişikliklər**

1. "Məcburi dövlət sosial sığorta haqqının toplanması Qaydaları" üzrə:

1.1. 1.2.23-cü yarımbənddə "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi," sözləri çıxarılsın, "Azərbaycan Respublikasının Prokurorluğu," sözlərindən sonra "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti," sözləri əlavə edilsin;

1.2. 1.2.24-cü yarımbənddə "Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti" sözləri "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri ilə əvəz edilsin.

2. "Məcburi dövlət sosial sığorta üzrə sığorta iştirakçılarının uçotu Qaydaları" üzrə:

2.1. 1.2.22-ci yarımbənddə "Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Nazirliyi," sözləri çıxarılsın, "Azərbaycan Respublikasının Prokurorluğu," sözlərindən sonra "Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti," sözləri əlavə edilsin;

2.2. 1.2.23-cü yarımbənddə "Nazirlər Kabineti yanında Dövlət Feldyeger Xidməti" sözləri "Xüsusi Dövlət Mühafizə Xidməti" sözləri ilə əvəz edilsin.